# SUDAN SƏMƏRƏLİ İSTİFADƏ QLOBAL PROBLEM KİMİ

**Rəna Sultanova**

*AR ETN İqtisadiyyat İnstitutu, Bakı*
*rena-sp@mail.ru*

Hazırda planetdə gedən iqlim dəyişikliyi qlobal bir problem kimi Azərbaycandan da yan keçməyib. Aparılan araşdırmalar göstərir ki, ölkə ərazisinin 24%-i quraqlıq təhlükəsi ilə üzləşməyib. Belə ki, Azərbaycanın 15% ərazisi ən yüksək, 8%-i yüksək, 28%-i orta və 25%-i isə aşağı quraqlıq riskinə düşür. Təbii Resursların Beynəlxalq İnstitutu tərəfindən aparılan hesablamalara görə 2040-cı ildə 33 ölkə içərisində Azərbaycanın total quraqlıq təhlükəsinə görə 18-ci yerdə olması vurğulanmışdır.

Aparılan araşdırmalar göstərir ki, Azərbaycanın su ehtiyatları Cənubi Qafqazın digər ölkələri ilə müqayisədə məhduddur və ölkənin yerüstü su ehtiyatlarının mənbələrini çaylar, göllər, su anbarları və

buzlaqlar təşkil edir. Belə ki, yerüstü su ehtiyatlarının 67-70%-i qonşu ölkələrin ərazisindən, qalanı isə (yerli axın) ölkəmizin daxili çaylarının ehtiyatları (28,5-30,5 kub kilometr), qonşu ölkələrdən isə transsərhəd çaylarla daxil olan su ehtiyatları (19,0-20,5 kub kilo metr) hesabına formalaşır. Quraqlıq illərdə su ehtiyatları 22,6-27,0 kub kilometrə qədər azalmışdır. Onu da qeyd etmək lazımdır ki, 17,1-14,3 kub kilometr çayların su ehtiyatları qonşu ölkələrin ərazisində istifadəsi nəticəsində 20%-ə qədər azalmışdır. Bu da öz növbəsində Azərbaycanda su tələbatının ödənilməsində çətinlik yaratmışdır.

Belə ki, 70-80-ci illərdə Ümummilli Lider Heydər Əlirza oğlu Əliyev tərəfindən ölkənin su ehtiyatlarının artırılması istiqamətində uğurla aparılan tədbirlər nəticəsində yerli çaylarda sululuğun səviyyəsi artırılmış (1961-90-cı illər), 1991-2022-ci illərlə müqayisədə isə 5%-dən 21,2%-dək azalmışdır.

Keçmişə nəzər salsaq 1960-1990-cı illərdə daha çox sululuq dövrü hesab edilir (su ehtiyatları 30 mlrd. kubmetr) və bu illər 2022-ci illə müqayisədə su ehtiyatları 17 mlrd. kubmetr təşkil etmişdir ki, bu da 43% az olmuşdur. Azərbaycanda yeraltı su ehtiyatlarının hesablanması əsasında nəzərdə tutulur ki, hazırda 8 mlrd. kubmetr su ehtiyatımız mövcuddur. Bu ehtiyatların bir hissəsi əsasən Qarabağdadır və burada bol sulu çaylardan istifadə edərək su anbarlarının tikilməsi nəzərdə tutulur. Alternativ olaraq Ölkə Prezidentinin Sərəncamına əsasən dəniz suyunun duzsuzlaşdırılması layihəsinin reallaşdırılması gündəmdədir. Məhz buna görə də Sumqayıtda istifadəyə verilən duzsuzlaşdırma zavodu Bakının su tələbatını ödəyəcək. Təmizlənən suyun təkrar istifadəsi üçün müxtəlif variantlar hazırlanır.

Son illərdə dünyada su qıtlığı problemi ilə bağlı bir sıra qətnamələr qəbul edilmişdir ki, onlardan "Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu Sessiyasının (COP29), Kioto Protokolunun Tərəflər Görüşünün 19-cu Sessiyasının və Paris Sazişinin Tərəflər Görüşünün 6-cı Sessiyasının təşkil edilməsi ilə bağlı Azərbaycanda bir sıra qanun, hüquqi-normativ aktlar qəbul edilmiş və reallaşdırılması həyata keçirilməkdədir.

Vurğulamaq lazımdır ki, su probleminin həlli istiqamətində hələ 23 iyul 2020-ci ildə Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin yanında su təsərrüfatının vəziyyətinə həsr olunmuş videoformatda müşavirə keçirilmiş, 30 may 2023-cü ildə "Su təchizatı və tullantı suları haqqında Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" sənəd qəbul olunmuş və 26 aprel 2024-cü ildə "Sudan istifadə Qaydaları" haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı olmuşdur.

Qeyd etmək lazımdır ki, quraqlıq problemi əsasən bitkiçilik və heyvandarlıq sahəsində işləyən fermerlərə böyük ziyan vurur və beləliklə, ölkədə ərzaq təhlükəsizliyi səviyyəsinin aşağı düşməsinə səbəb olur. Kənd təsərrüfatı nazirliyinin məlumatlarına görə, 2022-ci ildə Azərbaycanda güclü quraqlıq nəticəsində 100000 hektar taxıl bitkiləri məhv olmuşdur ki, bu da becərilən torpaqların 10%-ni təşkil edir. Nəticədə 2022-ci ildə Azərbaycanın buğda ilə təminatı 62%-dən 57%-ə enmiş, onun idxalına isə yönəldilən xərclər 100 milyondan 437 milyon dollara qədər yüksəlmişdir. Məhz quraqlıq təhlükəsi bütövlükdə ölkə üçün ciddi risklər yaradır. Bu baxımdan su resurslarından səmərəli istifadə mütəmadi olaraq əkin sahələrinin suvarılmasını həyata keçirməyə imkan yaradacaq ki, bu isə öz növbəsində müasir suvarma sistemlərinin işə salınmasını tələb edir.

Son illərdə həyata keçirilən infrastruktur islahatlar Azərbaycanın davamlı inkişafına öz təsirini göstərmiş və bu istiqamətdə işlər davam etdirilməkdədir. Əsasən də bu günlər dünyada müşahidə olunan qlobal su çatışmazlığı şəraitində mühüm əhəmiyyət daşıyan suvarma sistemlərinin müasir standartlara cavab verməsi üçün onların yenidən qurulmasına yönəldilən layihələrin reallaşdırılması ölkə iqtisadiyyatı üçün əhəmiyyət kəsb edir. Müasir dövrdə dünya quraqlıq problemi ilə üzləşir və bunu nəzərə alaraq ölkələr sudan qənaətlə istifadə edərək israfçılığa yol verməməlidir.

Son on ildə Azərbaycan qlobal səhralaşma problemi ilə üzləşir, bu da əsasən Kür və Araz hövzələrinin 2019-2021-ci illərdə dayazlaşması ilə əlaqədar olmuşdur ki, bu da suvarma böhranına səbəb olmuşdur. Vurğulamaq lazımdır ki, 2022-ci ildə suvarma suyu qıtlığı sabitləşmiş və bu problemin köklü surətdə aradan qaldırılması ilk növbədə su anbarlarının tikilməsi, suvarma kanallarının müasir standartlara cavab verməsi və su itkisinin aradan qaldırılması sistemlərinin tətbiqi vasitəsi ilə mümkündür. Məhz suvarma suyu çatışmazlığı problemini aradan qaldırmaq baxımından Kiçik Qafqazın çaylarında bol sudan istifadə edərək onların su anbarlarına cəlb edilməsi əhəmiyyət kəsb edir.

Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin "Su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Sərəncamında ölkədə 20 suvarma kanalının və 10 su anbarının tikilib istifadəyə verilməsi göstərilmişdir.

16 aprel 2024-cü ildə Azərbaycan Respublikası Prezidenti İlham Əliyev tərəfindən Şirvan su kanalının (əvvəllər Yuxarı Şirvan su kanalı) yenidən qurulması layihəsinin təməli qoyuldu və bu layihəni mühüm məsələnin həllinə yönəldilən bir addım kimi qiymətləndirmək olar. Vurğulamaq lazımdır ki, 2024-cü ilin aprel ayının 8-də Ölkə Prezidenti tərəfindən Şirvan və Qarabağ kanallarının yenidən qurulması haqqında Sərəncam imzalanmış və sonda Şirvan kanalının fundamenti qoyulmuşdur. Qeyd etmək lazımdır ki, əvvəllər bu kanal torpaq yataqlı idi və bu da illər keçdikcə onun fəaliyyətini zəifltəmiş və hiss olunan itkilərə səbəb olmuşdur. Beləliklə kanala yaxın olan torpaq sahələri duzlaşmış və əkin üçün yararsız olmuşlar. Bu isə öz növbəsində ekoloji vəziyyətin gərginləşməsinə səbəb olmuşdur.

Ölkə Prezidenti öz çıxışında qeyd etdi ki, Şirvan kanalının yenidən qurulması minlərlə insana bu layihənin reallaşmasında geniş imkanlar yaradacaq. Belə ki, 120 km-lik kanal 2 dəfəyə yaxın artırılaraq 200 km-ə qədər təşkil edəcək. Şirvan kanalının işə salınması əkin sahələrinin suvarılmasını 2 dəfə artıracaq və bu 230 min hektar kənd təsərrüfatı sahəsi təşkil edəcək. Əgər keçmişdə Şirvan kanalı səkkiz rayona xidmət göstərirdisə yenidən qurulmadan sonra ölkənin on regionunu əhatə edəcək və onun son nöqtəsi on il bundan öncə quraqlığa məruz qalmış Hacıqabul gölü olacaq. Qeyd etmək lazımdır ki, Yuxarı Şirvan kanalı hələ keçmiş SSRİ dövründə - 1958-ci ildə istismara verilmişdi. İndiyə qədər bu kanal respublikanın 9 rayonunda 149,4 min hektar əkin sahələrinin suvarılmasına imkan yaradırdı. Kanalın yenidən qurulması nəticəsində su itkiləri azalacaq və onun xidmətindən Hacıqabul, Yevlax, Ağdaş, Göyçay, Ucar, Zərdab, Ağsu, Kürdəmir, İsmayıllı və Şamaxı rayonlarının fermerləri yararlanacaq.

Belə ki, Şirvan kanalının yenidən qurulması ilk növbədə onun betonlaşdırılmasına imkan yaradacaq və su itkisinin azalmasına səbəb olacaq. Burada müasir standartlara uyğun hidrotexniki avadanlıqlar quraşdırılacaq və kanalın ötürmə qabiliyyəti 180 min kubmetr təşkil edəcək. kanalın tikintisindən sonra ölkənin on regionunda 228 min hektar əkin sahələri suvarma suyu ilə təmin olunacaq ki, onların da 112 min hektarı mövcud olan əkin sahələri, 116 mini isə yeni əkin sahələri təşkil edəcək.

Yuxarı Şirvan kanalı ölkədə həcminə görə ikinci kanal olaraq Mingəçevir su anbarından öz başlanğıcını götürərək əhalinin məskunlaşdığı rayonları da təmiz su ilə təmin edir. Bu kanalın 65 illik istismarı nəticəsində köhnə avadanlıqların sıradan çıxması, illik su itkisinin artması, torpaqların suvarma vəziyyətinin pisləşməsi müşahidə olunur. Bütün bunlar kənd təsərrüfatı sahələrində suvarma işlərində qıtlıq yaradaraq regionun suya artan tələbatında ekoloji balansın pozulmasına gətirib çıxarmışdır. Məhz kanalın yenidən qurulması Hacıqabul gölünün və ətraf ərazilərin ekoloji və meliorativ şəraitinin yaxşılaşdırılmasına, yüksək məhsuldarlığın əldə olunmasına, nasos stansiyalarının işinin bərpasına və onların kənd təsərrüfatı sahələrinin suvarma suları ilə təchiz olunmasına və Pirsaatçay su anbarının su ilə təmin edilməsinə imkan yaradacaq. Vurğulamaq lazımdır ki, Şirvan kanalının istifadəyə verilməsi 2027-ci ilin sonuna qədər nəzərdə tutulub.

Azərbaycanda ən böyük suvarma kanallarından biri kimi Qarabağ kanalı çıxış edir. 1958-ci ildə istismara verilən bu torpaq kanal uzunluğuna görə Samur-Abşeron kanalından sonra ikinci yerdədir. Qeyd etmək lazımdır ki, 30 il ərzində Qarabağ və ona bitişik yeddi rayonda erməni təcavüzü nəticəsində buranın su infrastrukturu bütövlükdə yararsız vəziyyətə salınmış və onun bərpasına zərurət yaranmışdır. Bu ərazilərin azad olunmasından sonra Azərbaycan regionun bütün əsas çaylarının və su anbarlarının drenajlarına nəzarət edərək mövcud infrastrukturun müasir standartlara cavab verməsi üçün layihələr planlaşdırır. Nəhayət, gələcək üçün son dərəcə vacib problemlərdən biri kimi BMT və dünyada tanınmış beynəlxalq analitik mərkəzlərin proqnozlarına əsasən 2040-cı ilə qədər planetdə su qıtlığı yaranacaqdır ki, bu da içməli və suvarma suyu olacaqdır. Qarabağ kanalı da Ölkə Prezidentinin Sərəncamı əsasında yenidən qurulacaq və 115 min hektar əkin sahələrini suvarma suyu ilə təmin edəcək. Kanal öz başlanğıcını Mingəçevir su anbarından və Kür çayından götürərək Qarabağ, Mil düzənliklərini suvarır və Araz çayına qədər gedir. Bu kanal ölkənin 11 rayonunu təmiz su və suvarma suları ilə təmin edir. O öz suyunu Araz çayına və Bəhrəmtəpə hidroötürücüyə yönəldir və beləliklə 5 rayonun su təchizatını həyata keçirir. Kanalın torpaq yataqlı olması Araz çayında suyun yüksək olmasına müəyyən çətinliklər yaradır. Bu kanalın yenidən qurulması burada su itkisinin azalmasına səbəb olacaq. Əgər torpaq çarpayılarda bu itkilər 25-30% təşkil edirdisə beton konstruksiyalı kanalda itkilər 10%-ə qədər azalacaq ki, bu da su resurslarının idarə olunmasını asanlaşdıracaq.

Beləliklə, Şirvan və Qarabağ kanallarının yenidən qurulması duzlaşmış və deqradasiyaya uğramış torpaqların vəziyyətinin yaxşılaşmasına səbəb olacaq.